# Nəcməddin Mürvətovun "İnsanlıq fənnin"dən poetik dərsləri...



■ Qurban Bayramov

*"Poeziya şairin ruhi çırpıntılarından yaranan həyat dərsləridir..."*
*(Pablo Neruda)*

Bu kitab - "İnsanlıq" bir ömür öyrəndiyim fənn" (Bakı, "Şur", 2019. - 272 səh.) şeirlər toplusu müəllifin - Respublikanın "Xalq maarifi əlaçısı" (1985), Azərbaycanın Əməkdar müəllimi (2015), "Tərəqqi" medalı mükafatçısı (2008), Azərbaycan Yazıçılar Birliyinin üzvü (2003), şair, yazıçı-publisist, pedaqoq Nəcməddin Mürvətovun oxucuları ilə 18-ci görüşüdür, yəni 18-ci kitabıdır. Adı da, məzmunu da mənalıdır, müəllifinin xarakterini, necə deyərlər, avtoportretini əks etdirir:

*"Bu gün, olar sabah, həm olub dünən,*
*"İnsanlıq" bir ömür öyrəndiyim fənn"*

Əslində, belədir, yaradıcı adam, qələm sahibi bu günü sabah, sabahı dünən edə-edə bütün ömrü boyu "İnsanlıq fənni" öyərənə-öyrənə, elə "İnsanlıq fənni"ndən də dərs deməli olur... Mən, bir şeir xiridarı kimi, Nəcməddin müəllimin bütöv yaradıcılığını "İnsanlıq fənnin"dən poetik dərslər hesab edirəm...

Kitabda Nəcməddinin müxtəlif janrlarda qələmə aldığı lirik, satirik şeirləri, qəzəlləri, düşüncələri - lirik, epik, fəlsəfi esseləri, deyimlər adlandırdığı aforizmləri, rübailəri, satirik məzmunlu qəzəlləri, lirik bayatıları toplanıbdır. Bu janr müxtəlifliyinin özü Nəcməddinin yaradıcılıq imkanlarının əhatəsindən xəbər verir...

Bir az da, dürüstləşdirsək - kitabdan-kitaba yaradıcılıq imkanlarını genişləndirən müəllifin mövzuları da, bu ədəbi janrlara uyğun tərzdə yeni çalarlarla zənginləşir, təbiətin və cəmiyyətin həssas sahələrinə nüfuz edir. Müasir dünyamızın problem və qayğıları, onların insanın sosial həyatında yox, mənəviyyatında yaratdığı narahatlıqlar, xüsusən də, insanların mənəvi aləmi şairin diqqət hədəfinə çevrilmiş başlıca mövzulardır. Bu şeir və düşüncələrin, deyimlərin məntiqi ardıcıllığı, poetik imkanı, təsvirlərdəki dəqiqlik, təbii və inandırıcı həyati lövhələr oxucu marağını şərtləndirən peşəkarlıqdan, sənətkar səriştəsindən xəbər verir və o, "Göylərdənmi yazım, dağlardan? Necə? Varsa insanlığın bir belə dərdi." - dilemması üzərində düşünməli olur, "fikirlərin kələfini" açmağa çalışır, "insanlıq dərdi" onun əsərlərinin əsas mövzu sferasına daxil olur... Və bəlkə, onun şeir xilaskarı da, elə buradadır:

*Ay duyanım, anlayanım,*
*Bəxtəvərəm, əgər varsan.*
*İlhamımla əhd-peymanım,*
*Sənsə mənə xilaskarsan.*

Onun yaradıcılığı, şəxsiyyəti haqqında qələm dostları, ədəbi tənqidin səlahiyyətli nümayəndələri fikir söyləmiş, obyektiv mülahizələrini bildirmişlər. Tanınmış mərhum şairimiz İlyas Tapdıq, onun, bütün kitablarının redaktoru və naşiri Musa Ələkbərli, tele jurnalist, yazıçı-publisist Sadıq Elcanlı, şair, yazıçı-publisist, "Kredo" qəzetinin baş redaktoru Əlirza Xələfli, tənqidçi Vaqif Yusifli, bu kitaba "Duyğulandıran düşüncələr, düşündürən poeziya" başlığında ön söz yazan istedadlı şair Qəşəm Nəcəfzadə və digərləri onun yaradıcılığına müxtəlif rakurslardan yanaşaraq maraqlı məqalələr qələmə almışlar və ən ümdəsi, onu "sözə" sığınan, "sözün bitən yerində" qərarlaşan şair kimi səciyyələndirmişlər:



*Matım-qutum quruyur, məlul durub baxıram,*
*Dodağımı, dilimi dişlərimlə sıxıram,*
*Haqq bildiyim çox şeyi şəkk-şübhəyə çıxıram.*
*Sustalıram, çökürəm halsızlığın tərində,*
*Kiməm, nəyəm, bilmirəm sözün bitən yerində.*

Nəcməddin müəllim həssas bir şair kimi ətrafda, mühitdə, cəmiyyətdə gedən prosesləri ardıcıl izləyən, bu prosesi istedadının imkanları səviyyəsində bədii sözə çevirməyi bacaran şanslı ziyalılarımızdandır. Onun yeganə bir düşərgəsi var - vətənpərvərlik, kişilik, mərdlik, dövlətçiliyinə bağlı vətəndaşlıq düşərgəsi... İkili, yaxud, standart düşüncə tərzi ona yaddır. Bəzi yazarlarda yumor hissi, sarkazm çatışmır. Amma Nəcməddinin yaradıcılığında incə yumor yox, istehza ilə bəlirlənmiş sarkazm var. Əslində, Nəcməddin bir müəllim-pedaqoq, yeni dövrün maarifçisi kimi özünü həm cəmiyyətdə, həm də şeirində ağsaqqal mövqeyində durmağı bacarır... "Kişilərə arxalan" şeiri bu mövqeyə bariz nümunədir:

*Deyən varsa səhvini çəkinmədən üzünə,*
*Bildirirsə fikrinin əyrisi nə, düzü nə,*
*Səbəb olsa da bax bu, ürəyinin közünə,*
*Çox darılma, çətində olar o, sənə həyan,*
*Yaltaq, yalaqlara yox, KİŞİlərə arxalan.*

Belə baxanda, indi biz müharibə şəraitində yaşayırıq, tutduğumuz mövqedən, yaşımızdan, baxışımızdan asılı olmayaraq, hamılıqla əsgər olmalıyıq. Hər kəsin səngəri olmalıdır... Nəcməddin də, səngəri, mövqeyi olan, cəbhəsi olan şairdir, həm də vətəndaşdır... O da, öz sahəsində əsgərdir, döyüşçüdür... İctimai, mənəvi-əxlaqi dəyərlərimizin müdafiəçisidir... O, cəmiyyətdə, əxlaqda, mənəviyyatda hər çeşidli naqisliyə, neqativliyə qarşı qələmi silaha çevirərək müharibə elan edibdir...

Bu cəhət, düşünürəm ki, bir şair-ədib kimi onun yaradıcılığının genetikasında oturuşubdur... "Kim biləcəkdir?" satirik qəzəli (Nəcməddin lirik qəzəl janrını cəsarətlə satirik-qəzəl janrına çeviribdir) və bu qəbildən olan digər qəzəlləri onun yaradıcılığının genetik kodunun daşıyıcısıdır.

Müdrik sözü hər adam deyə bilməz, gərək müdrik söz demək səlahiyyəti qazanasan... Başqa sözlə, müdrik söz demək səlahiyyəti müdrik adamlara verilir... Aforizmlər də müdrik sözlər silsiləsindəndir. "Aforizmlər fikrin qönçəsidir" - deyiblər. Burada da, Nəcməddin müəllim aforizmlərin məna tutumundakı müdriklik mayasından istifadə edərək mənəvi dəyərləri təlqin etməyə çalışır:

*Olur simasızın da sələfi, həm xələfi,*
*Yəqinim bu ki, ancaq olmur zərrə şərəfi...*

* * *

*Sevgi umursansa kimsədənsə sən,*
*Gərək öncə ona sevgi verəsən...*

Onun şerləri tərənnüm və vəsf lirikası deyildir. Onun şeirlərinin ruhu, ahəngi həyata, gerçəkliyə bağlıdır. Mistikadan, fatalizmdən uzaqdır... Hətta ilahi anlama, dini imana söykənən şeirlərində də mistika yoxdur... Hərəsi gerçəkliyin bir qəlpəsi, bir zərrəsidir - Xəzər dənizinin sahillərindəki balıqqulağılar təkin sərt, amma zərif, hərəsi bir biçimdə, hərəsi bir naxışda... Əksəriyyəti də, nüvəsində bir vətəndaş yanğısı, istisi, hərarəti qorumaq şərti ilə...

*Bu dünyanın dərdlərini çəkən var,*
*Ondan-bundan köksünə qəm əkən var.*
*Heçcə nəyi almayan heç vecinə,*
*Ağrılarla oynayan var, səkən var.*

Nəcməddinin poeziyasındakı poetik dilin regional erfoepik strukturuna xas lirizm, melodik takt, ritm onun qələmə aldığı digər şeirlərdə olduğu kimi, bayatılarda özünü nümayiş etdirir. Onun bayatıları da mövzuca üslubuna uyğundur. Burada da, xalqın kədəri, ədalətsizliyə, mənəviyyatsızlığa qarşı etiraz, yadelli işğalçılara nifrət, azadlıq və xoşbəxtlik arzuları ifadə edilmiş, məhəbbətə, ayrılığa, dostluğa, yurd həsrətinə aid təsirli bayatılar söylənmişdir:

*Əzizim, dağlar məni,*
*Həsrətin dağlar məni.*
*El-obadan gen düşsəm,*
*Görərsən ağlar məni.*

Açıqgözlülük fədakarlıq səviyyəsində onun ədəbi estetikasının əsas prinsiplərindəndir və buna görə də, bəlağətdən uzaq "Haqqı deyən söz məndə!" - deyimi inandırır, yerinə düşür!

Özü də, bütün fikirlərində səmimi və müstəqildir, asılılıqdan uzaqdır, güclü-gücsüz özüdür, özününküdür... Qaraguruhçuların qınağından qorxaraq fikirlərini, düşüncələrini açıq bildirməkdən çəkinən "adamlar"dan deyil!.. Əksər müsibətlərə yol açan, insanları alçaldan, rəzil edən mənəvi naqisliyi, cürüklüyü, insani dəyərləri dəyərdən salan, mənən çürüdən, ilan xislətli, haqq-ədalətdən uzaq xaraktерə malik tipajları "Varımış paxıllıq da" qəbildən şeirlərində cəsarətlə, açıq şəkildə qamçılayır:

*Sığmırdı ağlıma paxıllıq da var,*
*Gördüm neçəsində, gördüm, inandım.*
*Bundan varlığımda acı ruzigar*
*Əsdi, çox fikrimi silməklə dandım.*

*...Niyə sevinməyək uğurumuza,*
*Niyə gözləməyək haqq-ədaləti?*
*Paxıllıq döndərər bizi quduza,*
*Yaradar sancmağa ilan xisləti.*

Onun şeirlərinin və minatürlərinin bir mövzu və məzmun qolu da kövrək, kövrək olduğu qədər də düşündürücü, zərif didaktikadır, müasir insanların, xüsusən də gənclərin maariflənməsinə xidmət edir. Onun peşəkar müəllimlik iddiası, hər şeyə müəllim gözü ilə baxmaq iddiası peşəkar şairlik iddiasından bir addım öndə gedir. O, əvvəl ətraf mühitə, baş verən hadisələrə müəllim gözü ilə baxır, müəllim gözü ilə qiymətləndirərək şeirə, bədii mətnə çevirir.

*Hissim, duyğularım ağ vərəqlərə*
*Köçür, bax, yaranır belədə şeirim.*
*Dönür deyimlərim nəsə dəyərə,*
*Düşür ağızlara, dilə də şeirim.*

*Yazıb yaradıram, hələ ki, varam,*
*Ağa ağ deyərəm, qaradır qaram.*
*Mənə-Nəcməddinə olar söz haram,*
*Öləndə, özümlə ölə də şeirim.*

Müəllifin yaradıcılığında mühüm poetik qollardan biri də Qarabağ mövzusudur. Bu mövzuya Nəcməddin şəxsi taleyinin acıları kimi baxır, həsrət, ağrı notlarını ağrıya-ağrıya əks etdirir... Müəllif Qarabağ dərdini bəşəriyyətin ən ağrılı dərdi bilir, bu qəbildən şeirlərinin məzmunu haqsız, işğalçı müharibələrin törəməsi olan, ayrılıqlardan, ağrılardan və dərdlərdən qidalanır:

*Əzizinəm Qarabağ,*
*Dərd-ələmli yurd, torpaq.*
*Ayrılığın sinəmdə,*
*Çalın-çarpaz yara, dağ.*

* * *

*Əzizinəm o dağı,*
*O qayanı, o dağı.*
*İnan ki, can verməрəm,*
*Görməsəm Qarabağı.*

Onun ədəbi estetikasında "Şeir möcüzədir şair yazanda, "Şeir" dəhşət olur mətləb azanda" fikri əsas yer tutur, yaxşı mənada "köhnə kişilərin" əxlaqını, mənəviyyatını önə çəkir, ənənə ilə novatorluğun - yeniliyin vəhdətini, ortaqlığını axtarır, məsələn "Köhnələrdənəm" şeirində olduğu kimi..

*Mən "köhnələrdənəm", sən bəyənməyən,*
*Uyğun olmayan da görkəmim dəbə.*
*Ruhum bayağını bil, götürməyən,*
*Bundan da köklənən ən sərt tələbə.*

*...Mən "köhnələrdənəm", səbrim, təmkinim,*
*Yetir ki, düşünüm, verim düz qərar.*
*Çaşdırmır hələ ki, gümanım, zənnim,*
*"Köhnəm"lə "yenim"in ortaqlığı var.*

Biz də öz növbəmizdə şairin daim yeni, orijinal bir mətləbdən bəhs edəcəyinə, inanırıq.